Milli Büdcə Qrupu
*Büdcənin şəffaf və səmərəli istifadəsi sahəsində təşəbbüsləri ictimai marağa çevirək*

*To transform initiatives on transparent and effective usage of budget into public interest.*
National Budget Group

İNFORMASİYA BÜLLETENİ 3 Mart 2013

# Səhiyyə xərcinin 70 faizini əhali özü qarşılayır

**Böyük Britaniyada nəşr olunan "Lanset" tibb jurnalı Avropada səhiyyənin vəziyyətinə dair 3-cü hesabatını dərc edib.**

Hesabatda əsas diqqət MDB məkanına ayrılıb. Avropanın ən tanınmış tibb nəşrinin hesablamasına görə, MDB-də xəstəliklərdən, həyat şəraitindən ölüm faizi Qərbi Avropadakından hələ də çox yuxarıdır. Konkret olaraq, MDB məkanında ürək xəstəliklərindən, eləcə də ana və uşaq ölümləri, yoluxucu xəstəliklərdən ölüm faizi yüksəkdir. Hesabatda ən böyük problemlərdən biri kimi vətəndaşların səhiyyə



xərclərini öz ciblərindən ödəməsi göstərilir.

*Davamı 3-cü səhifədə*

# Hökumətin hesabatı Milli Məclisdə 15 dəqiqəyə təqdim olunub

**Martın 14-də Milli Məclisdə Baş nazir Artur Rasizadə Azərbaycan hökumətinin 2012-ci ildəki fəaliyyətinə dair hesabatı təqdim edib.**

15 dəqiqə çəkən çıxışı zamanı baş nazir bildirib ki, hesabat ilində ümumi daxili məhsul istehsalında 2,2 faiz, o cümlədən qeyri-neft sektorunda 9,7 faiz artım qeydə alınıb.

İqtisadiyyata bütün maliyyə mənbələri hesabına 25,8 milyard ABŞ dolları məbləğində investisiya yönəldilib ki, bunun da 75 faizi qeyri-neft sektorunun payına düşür.

*Davamı 3-cü səhifədə*



## 2012-ci ildə bələdiyyələrin maliyyə durumu

**2012-ci ildə ölkə üzrə yerli (bələdiyyə) büdcələrin məcmu gəlirləri 35.86 milyon manat, məcmu xərcləri isə 35.81 milyon manat təşkil edib.**



Əvvəlki illə müqayisədə 2012-ci ildə ölkə bələdiyyələrinin büdcə gəlirləri 1.75 milyon manat və ya 5.1 faiz, xərcləri isə 2.8 milyon manat və ya 8.5 faiz çox olub.

Ötən il ölkə üzrə bələdiyyələrin ümumi büdcə gəlirlərinin 11.77 milyon manatı (32,8 faizi) vergilərdən daxilolmalar, təqribən 22.0 milyon manatı (61.3 faiz) qeyri-vergi gəlirləri, qalan 2.1 milyon manatı (5.8 faiz) isə digər gəlirlər hesabına formalaşıb.

**Davamı 2-ci səhifədə**

## Azərbaycanda fiskal mərkəzləşmə meylləri güclənir




Milli Büdcə Qrupu "Sizin pulunuz, Sizin gələcəyiniz: Azərbaycanda dövlət maliyyə siyasətinin və idarəetməsinin təkmilləşdirilməsi" layihəsinin icrası çərçivəsində "Azərbaycanda fiskal əksmərkəzləşmə: real vəziyyətin qiymətləndirilməsi" mövzusunda tədqiqat hazırlayıb.

Tədqiqatda fiskal əksmərkəzləşmənin mahiyyəti və əhəmiyyəti qeyd edilib.

*Davamı 4-ci səhifədə*

# Büdcə xərcləri 3,2 faiz kəsirlə icra olunub

**2012-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 17281,6 milyon manat və ya 101,4 faiz, xərcləri isə 17105,6 milyon manat və ya 96,8 faiz səviyyəsində icra olunub.**

Hökumətin Milli Məclisə təqdim etdiyi hesabata görə, büdcə daxilolmalarının 34,9 faizi(6025,5 milyon manat) Vergilər Nazirliyi, 7,0 faizi(1208,3 milyon manat) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilib. 57,3 faiz(9905,0 milyon manat) büdcə gəlirini Dövlət Neft Fondundan transfert, 0,8 faizi isə digər mənbələrdən gəlirlər təşkil edib.

*Davamı 2-ci səhifədə*

# Hesablama Palatası hesabat verib

**Aprelin 5-də Milli Məclisdə Hesablama Palatasının 2012-ci ildəki fəaliyyətinə dair hesabatı dinlənilib.**

Hesabatı təqdim edən Palata sədri Heydər Əsədov ötən il qurum tərəfindən 68 audit və 2 analitik təhlil işi keçirildiyini deyib: "Bu nəzarət tədbirləri müxtəlif sahələri əhatə edib. Səfirliklərdə də yoxlamalar keçirilib. Respublika Prokurorluğu yanında Baş Korrupsiya idarəsi ilə 2 yoxlama da baş tutub. Bir neçə il aparılan yoxlamalar maliyyə vəsaitlərindən istifadənin xeyli yaxşılaşdığını göstərir".

*Davamı 4-cü səhifədə*

## Qeyri-büdcə sektorundan sosial sığorta ödənişləri artıb

**Ötən il Dövdət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri 2475,8 milyon manat təşkil edib.**

Hökumətin 2012-ci ildəki fəaliyyətinə dair hesabata görə, gəlirlərin 1422,7 milyon manatı məcburi dövlət sosial sığortası haqlarından daxil olub. Bu məbləğin 874,6 milyon manatı qeyri-büdcə sektorundan (proqnozdan 13,6 faiz çox), 548,0 milyon manatı(proqnozun 86 faizi) isə büdcədən maliyyələşən təşkilatlardan daxil olan sosial sığorta haqlarıdır.

*Davamı 3-cü səhifədə*

# Neft Fondunun büdcəsi kəsirlə icra olunub

**2012-ci il ərzində Dövlət Neft Fondunun büdcə gəlirləri 13674,2 milyon manat (təsdiq olunmuş gəlirlərin 99,6 faizi), büdcə xərcləri isə 10573,6 milyon manat(təsdiq olunmuş xərclərin 98,3 faizi) təşkil edib.**




Azərbaycan hökumətinin Milli Məclisə təqdim etdiyi hesabatda verilən məlumata görə, ötən il ərzində DNF mənfəət neft və qazının satışından 13117,4 milyon manat(proqnozun 98 faizi), akrhesabı ödənişlərdən 3,0 milyon manat (proqnozun 90 faizi), tranzit haqqından 7,9 milyon manat (proqnozun 97 faizi), bonus ödənişlərindən 1,6 milyon manat, Fondun vəsait-lərinin idarə olunmasından 544 milyon manat (proqnozdan 70,1 faiz çox), xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 0,3 milyon manat (proqnozun 28 faizi) əldə edib.

Xərclərə gəlincə, ötən il Fonddan 9905,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaş-dırılması və sosial-məişət vəziy-yətinin yaxşılaşdırılmasına 300,0 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə 200,0 milyon manat, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliy-yələşdirilməsinə 20,0 milyon manat, "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliy-yələşdirilməsinə 119,0 milyon manat (proqnozun 47,1 faizi) yönəldilib. İl ərzində Fondun idarə edilməsinə isə 29,6 milyon manat(proqnozun 40,1 faizi) xərclənib.

# Büdcə xərcləri 3,2 faiz kəsirlə icra olunub

*(Əvvəli 1-ci səhifədə)*

Vergi daxilolmalarının 1 695,1 milyon manatı dövlət, 4 330,2 milyon manatı isə dövlət sektorundan təmin edilib. Qeyri-dövlət sektorundan yığılan vergilərin 67,6 faizini(2 928,8 milyon manat) neft-qaz sahəsində hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin ödədiyi mənfəət vergisi təşkil edib.

Ötən il dövlət büdcəsindən təhsil sahəsinə proqnozda nəzərdə tutulandan 199,4 milyon manat az(icra 86,8 faiz), səhiyyəyə 64,9 faiz az(icra 89,7 faiz), sosial müdafiə və sosial təminata 75,8 milyon manat az(icra 95,8 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlərə 17,2 milyon manat az(icra 93,2 faiz), ümumi dövlət xidmətlərinə 74,2 milyon manat az(93,1 faiz), məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanmasına 61,6 milyon manat az(icra 93,6 faiz) vəsait yönəldilib. Büdcə



proqnozuna ən çox əməl olunan xərc maddəsi dövlət əsaslı vəsait qoyuluşu xərclərinin daxil olduğu "Sənaye, tikinti və faydalı qazıntılar" xərc maddəsidir bu isrtiqamətə 2012-ci ildə 5783,7 milyon manat sərf olunmaqla proqnoza 99,8 faiz əməl edilib. Naxçıvan Muxtar respublikasının büdcəsinə köçürmə proqnozuna isə tam əməl olunub 258,1 milyon manat.

# 2012-ci ildə bələdiyyələrin maliyyə durumu

*(Əvvəli 1-ci səhifədə)*

Əvvəlki illə müqayisədə 2012-ci ildə yerli büdcələrin vergi daxilolmaları 1.3 milyon manat (və ya 10.0 faiz) azalıb, qeyri vergi daxilolmaları 1.85 milyon manat (9.2 faiz), digər gəlirlər isə 1.19 milyon manat (2.3 dəfə) artıb.




2012-ci ildə yerli büdcələrin vergi daxilolmalarının ümumi məbləğindən 6.49 milyon manatı (55.1 faizi) fiziki şəxslərin torpaq vergisinin, 3.68 milyon manatı (31.3 faizi) fiziki şəxslərin əmlak vergisinin, 639.2 min manatı (5.4 faiz) yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin, qalan 970 min manatı (8.2 faiz) isə müxtəlif növ yerli ödənişlərin payına düşüb.

2011-ci illə müqayisədə ötən il ölkə üzrə yerli büdcələrin vergi daxilolmaları 1.3 milyon manat, yaxud 10.0 faiz az olub. O cümlədən, fiziki şəxslərin torpaq vergisindən daxiolmalar üzrə 965.2 min manat yaxud 13.0 faiz, fiziki şəxslərin əmlak vergisindən daxiolmalar üzrə 662 min manat yaxud 15.3 faiz azalma müşahidə olunub. Amma, yerli tikinti materialları üzrə mədən vergisindən daxilolmalar əvvəlki illə müqayisədə 43.4 faiz (193.5 min manat) artıb.

2012-ci il ərzində ölkənin 1718 bələdiyyəsinin ümumi gəlirləri 35 milyon 860.6 min manat təşkil edib ki, bu da orta hesabla bir bələdiyyə 20870 manat düşməsi deməkdir. Ölkənin regionları üzrə bələdiyyələrin illik gəlirlərində ciddi kənarlaşmalar müşahidə olunur. Belə ki, orta hesabla bir bələdiyyəyə düşən illik gəlirlərin məbləği Abşeron üzrə 210 min manat, Bakı üzrə 139.8 min manat olduğu halda, bu göstərici Gəncə-Qazax zonasında 14.1 min manat, Lənkəran zonasında 10.8 min manat, Naxçıvan MR-də isə 3.6 min manat təşkil edib.



2012-ci ildə ölkə bələdiyyələrinin ümumilikdə xərcləri 35.81 milyon manat olub. Bunun 17,1 milyon manatı (47.7 faizi) yerli özünüidarə orqanlarının saxlanılmasına, 2,18 milyon manatı (6.1 faizi) sosial təyinatlı xərclərə ( o cümlədən 1.4 milyon manatı sosial müdafiə və sosial təminat məqsədlərinə), 9.86 milyon manatı (27.5 faizi) mənzil-kommunal təsərrüfatı xərclərinə, 3.7 milyon manatı (10.4 faizi) avtomobil yollarına və nəqliyyata, qalan 2.99 milyon manatı (8.3 faizi) isə sair xərclərə istifadə olunub.

# Səhiyyə xərcinin 70 faizini əhali özü qarşılayır

*Əvvəli 1-ci səhifədə*

Jurnala görə, MDB bu sahədə Qərbi Avropadan çox geridədir. MDB üzrə isə bu göstəriciyə görə Azərbaycan ən pis vəziyyətdədir. Belə ki, Azərbaycanda əhali səhiyyə xərclərinin 69,6 faizini öz cibindən ödəyir. Gürcüstanda bu göstərici 68,3 faiz, Ermənistanda 55,2 faiz, Rusyada 31,4 faiz, Qazaxıstanda 40,1 faiz təşkil edir. Qərbi Avropada isə bu məbləğ cəmi 16,6 faiz həddindədir.

**Bütün səhiyyə xərclərinin nə qədərini MDB-də insanlar öz ciblərindən verirlər?**

| | |
|---|---|
| **Ermənistan** | **55,2 %** |
| **Azərbaycan** | **69,6%** |
| **Belarus** | **19,9%** |
| **Gürcüstan** | **68,3%** |
| **Qazaxıstan** | **40,1%** |
| **Qırğızıstan** | **37,8%** |
| **Moldova** | **44,9%** |
| **Rusiya** | **31,4%** |
| **Tacikistan** | **66,5%** |
| **Türkmənistan** | **40,6%** |
| **Ukrayna** | **40,5%** |
| **Özbəkistan** | **42,7%** |

**Müqayisə üçün:**

| | |
|---|---|
| **Avropa Birliyi** | **16,6%** |



Jurnalın məlumatlarına görə, Azərbaycanda səhiyyə xərci adambaşına düşən ümumi daxili məhsulun 5,9 faizini təşkil edir ki, bunun cəmi 1,2 faizini dövlət verir. Belə çıxır ki, qalan 4,7 faiz vətəndaşın öz üzərinə düşür. Qeyd edək ki, jurnalın məlumatlarına əsasən Ermənistanda səhiyyə xərcinin cəmi 2,6 faizi, Gürcüstanda isə 7,7 faizi vətəndaşın üzərindədir.

Milli Büdcə Qrupunun eksperti Azər Mehtiyevin sözlərinə görə, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin həcminə görə Azərbaycan ən aşağı yerlərdən birini tutur: “2005-2012-ci illər ərzində dövlət büdcəsinin səhiyyə xərcləri 115,3 milyon manatdan 567,8 milyon manat səviyyəsinə qalxmasına (təqribən 5 dəfə artıb) baxmayaraq, dövlət səhiyyə xərclərinin məbləği hələ də dövlət büdcəsinin ümumi xərclərinin 3,3 faizi, ÜDM-in 1,1 faizi səviyyəsindədir”. A.Mehtiyev bildirdi ki, “ölkədə səhiyyə sisteminin maliyyələşdirilməsi prinsipləri üzrə köklü islahatlar həyata keçirilmədən əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin arzuolunan səviyyəyə çatdırılması mümkün deyildir. Buna görə səhiyyə sisteminin islahatları məqsədyönlü şəkildə sürətləndirilməli və icbari tibbi sığortanın tətbiqi istiqamətində ardıcıl və sistemli addımlar atılmalıdır”.

## Qeyri-büdcə sektorundan sosial sığorta ödənişləri artıb

*Əvvəli 1-ci səhifədə*

Dövlət büdcəsi hesabat ilində də DSMF-nin əsas donoru mövqeyini saxlayıb büdcədən Fonda 1044,3 milyon manat transfert edilib. Fondun digər mənbələrdən (sanatoriya-kurort yollayışlarının qismən dəyərinin ödənilməsi və sair) gəlirləri isə 8,8 milyon manat təşkil edib.

2012-ci ildə DSMF 2458,9 milyon manat xərcləyib. Bu məbləğin əsas hissəsi 2344,8 milyon manatı pensiyaların, 58,6 milyon manatı isə müavinətlərin ödənişinə sərf olunub. Fondun 55,5 milyon manat təşkil edən digər xərclərinə DSMF aparatı və yerli orqanlarının saxlanmasına sərf olunan 20,1 milyon manat, pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqlarının ödənməsinə sərf olunan17,2 milyon manat və sair xərclər daxildir.

# Hökumətin hesabatı Milli Məclisdə 15 dəqiqəyə təqdim olunub

*Əvvəli 1-ci səhifədə*

Strateji valyuta ehtiyatları 46 milyard dollara qədər artaraq, xarici dövlət borcunu 8 dəfə üstələyib. Ötən il orta aylıq əməkhaqqı 8,7 faiz artıb, əmək pensiyalarının orta aylıq məbləği 152 manata çatıb.

2012-ci ildə məcburi köçkünlərin sosial ehtiyaclarının həllinə 600 milyon manatdan artıq vəsait sərf edilib. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına sahibkarlara 218 milyon manat güzəştli kredit verilib.

Keçən il kənd təsərrüfatında ümumi məhsul istehsalı 6,6 faiz artıb. Ərzaq məhsulları ilə təminatda idxaldan asılılığın azaldılması məqsədi ilə yeni quşçuluq, heyvandarlıq, dəyirman kompleksləri, ərzaq buğdasına olan daxili tələbatın ödənilməsi məqsədilə Ağcabədi və Beyləqan rayonlarında iri pilot taxılçılıq təsərrüfatları yaradılıb. Bu il digər rayonlarda da belə təsərrüfatların yaradılması istiqamətində işlər aparılır.

Baş nazirin sözlərinə görə, “Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nın icrasına ümumilikdə 2,1 milyard manatdan artıq vəsait sərf edilib.

Təqdimatdan sonra ümumilikdə 35 nəfərə yaxın deputat çıxış edərək hesabatla bağlı mövqelərini bildiriblər. Daha sonra hesabat səsə qoyularaq 104 nəfər lehinə, 2 nəfər əleyhinə və 1 nəfərin bitərəfliyi ilə qəbul olunub.

**Milli Məclisin üzvü İqbal Ağazadə** Azərbaycan hökumətinin hesabatını ciddi tənqid edib. Bildirib ki, hesabatda hesabatda ölkənin 42 faizinin bölgədə yaşadığı qeyd olunur, amma bölgələrə çox az vəsait ayrılır: “Hesabatda hökumətə dəxli olmayan məsələlər var. Hansısa şirkət nə qədər məhsul istehsal edib və s. Filan şirkət filan qədər mebel satıb, ondan sənə nə? Hökumətin bu işlərə nə dəxli var? Hökumətin hesabatını qeyri-qənaətbəxş hesab edirəm. Azərbaycan yeni iqtisadi doktrina qəbul etməlidir. Əks təqdirdə, dünyada baş verən kataklizmlər Azərbaycan əhalisini pis vəziyyətdə qoyacaq».



İ.Ağazadə



İ.İsmayılov

**Milli Məclisin üzvü İlyas İsmayılov** hökumətin 2012-ci ildəki fəaliyyətinə dair hesabat müzakirə olunarkən aqrar sektorda korrupsiyaya qarşı mübarizənin demək olar ki, aparılmadığını qeyd edib: “Kəndlilər məhsullarını bazara çıxara bilmirlər, məcbur olub ucuz qiymətə satırlar, ya da alverçilərə verirlər. Bu da 40-50 faiz bahalaşmaya səbəb olur. Kəndli öz məhsulunun normal qiymətə sata bilmirsə, onda həmin sektora marağı itir, gedib tikintidə işləyir. Məncə, inhisarçılıqla bağlı islahatlar aqrar sahəni də əhatə etməlidir”.

# Azərbaycanda fiskal mərkəzləşmə meylləri güclənir

*Əvvəli 1-ci səhifədə*

Sənəddə Azərbaycanda fiskal əksmərkəzləşmənin hüquqi mexanizmləri göstərilib, Azərbaycanda fiskal əksmərkəzləşmə səviyyəsinin kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi aparılıb, dünya ölkələri ilə müqayisəli təhlillər həyata keçirilib.

Tədqiqatda fiskal əksmərkəzləşmənin mahiyyəti və əhəmiyyəti qeyd edilib, Azərbaycanda fiskal əksmərkəzləşmənin hüquqi mexanizmləri göstərilib, Azərbaycanda fiskal əksmərkəzləşmə səviyyəsinin kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi aparılıb, dünya ölkələri ilə müqayisəli təhlillər həyata keçirilib.

Araşdırmadan məlum olur ki, Azərbaycanda yerli və regional muxtar qurumların xərclərinin mərkəzi hökumətin məcmu xərcləmələrində və ÜDM-də payı son dərəcə aşağıdır. 2012-ci ildə yerli səviyyədə xərcləmələrin dövlət bdcəsinin xərclərinə nisbəti 2.0%, ÜDM-ə nisbəti 0.56% təşkil edib. 2008-2012-ci illər dövründə həmin göstəricilərin səviyyəsi azalmaqda davam edib.

Hesablamalar göstərir ki, 2008-2012-ci illər ərzində yerli və regional hakimiyyət orqanlarının vergi gəlirləri 20 % artaraq 65 milyon manatdan 78.2 milyon manata çatıb. Lakin həmin dövrdə yerli vergi gəlirlərinin mərkəzi hökumətin gəlirlərinə nisbəti 0,6%-dən 0,45%-ə enib. Bələdiyyələrin məxsusi gəlir mənbələrinin dövlət büdcəsinin gəlirlərində payı isə daha sürətlə azalaraq 0,37%-dən 0.18%-ə düşüb.

Ölkədə fiskal əksmərkəzləşmənin səviyyəsini qiymətləndirmək üçün araşdırmanın sonunda “Fiskal əksmərkəzləşmə indeksi» adlanan əmsal hesablanıb. Bu




indeks 2 müxtəlif göstərici əsasınla müəyyənləşdirilir: (i) fiskal muxtariyyət: (ii) yerli hakimiyyətin fiskal gücü. Hesablamadan məlum olub ki, Azərbaycanda bu indeksin səviyyəsi (6.8 faiz) inkişaf etmiş ölkələrlə müqayisədə orta hesabla 10 dəfə, bir sıra keçid ölkələrinə nisbətən 5-6 dəfə geri qalır. MDB məkanında Azərbaycandan savayı ən aşağı göstərici Ermənistan (18%) və Gürcüstanda (17,2%) qeydə alınıb. Lakin, bu ölkələrdə də fiskal əksmərkəzləşmənin səviyyəsi Azərbaycandan təxminən 3 dəfə yüksəkdir.

# Hesablama Palatası hesabat verib

*Əvvəli 1-ci səhifədə*

H.Əsədov nöqsanların əksəriyyətinin cinayət xarakterli olmadığını söyləyib: “Sadəcə, mühasiblərin qeyri-peşəkarlığından, kimlərinsə düzgün göstəriş verməməsindən asılı olub”.

Palata sədrinin sözlərinə görə, sosial vəsaitlərdən istifadədə sui-istifadə halları artıb: “Bu halların səbəbləri isə əsasən bəzi yerlərdə maliyyə işlərinə kifayət qədər diqqət yetirilməməsi, maliyyə xidmətinin peşəkar kadrlarla təmin olunmaması və sairdir. Bu nöqsanlara qanun boşluqları, normativ sənədlərin çatışmazlığı, bir sıra subyektlərdə köhnə SSRİ dövründən qalma sənədlərindən istifadə olunmasıdır”.

Hesablama Palatası 2011-də hökumətə 57, ötən il isə 100 təqdimat göndərib. Onların 25 faizi nazirliklərə ünvanlanıb və H.Əsədovun sözlərinə görə, təkliflərin böyük əksəriyyəti həvəslə yerinə yetirilib.

Xarakterik nöqsanlardan danışan Əsədov bildirdi ki, bir çox büdcə təşkilatlarında artıq ştat saxlanılır. “Görülən tədbirlər nəticəsində 550 ştat ləğv olunub, 220 qrup bağlanılıb. Səhiyyə sahəsinə aid təqdimatla bağlı 1000-dən çox çarpayı ləğv edilib.





**H.Əsədov** **Ə.Məsimli**

Hesablama Palatasının tədbirləri nəticəsində təsərrüfat təşkilatlarında 88,8 milyon manatlıq vəsait uçota alınıb. 4 milyon 366 min manat dövlət büdcəsinə nəql edilib. 144 min manat məbləğində sosial müdafiə xərcləri Dövlət Sosial Müdafiə Fonduna köçürülüb”.

Palata sədri onu da qeyd edib ki, hüquq-mühafizə orqanlarına göndərişlərdən başqa, təsərrüfat subyektlərində cəza tədbirləri də görülüb: 44 adam işdən çıxarılıb, onlardan 13-ü vəzifəli şəxs, 3-ü müavindir. Daha 44 nəfərə şiddətli töhmət,



92 nəfərə töhmət elan olunub.

**Milli Məclisin üzvü Əli Məsimli**nin fikrincə, Hesablama Palatası daha çox işlər görə bilər: “2012-ci il ərzində hesablama Palatasının büdcəsi 2,9 milyon manat olub. Bunun müqabilində nə qədər vəsait dövlət büdcəsinə qaytarılıb? Əgər şərait yaradılsa, Hesablama Palatası bundan qat-qat artıq, 10 milyonlarla manat büdcəyə qaytara bilər".

Çıxışlardan sonra Hesabalama Palatasının hesabatı qəbul edilib.

Informasiya bülleteni Avropa Birliyi və Oksfam-Azərbaycan Təşkilatının maliyyə dəstəyi ilə həyata keçirən “Sizin pulunuz, Sizin gələcəyiniz: Azərbaycanda dövlət maliyyə siyasətinin və idarəetməsinin təkmilləşdirililməsi” layihəsi çərçivəsində hazırlanıb.
Bülletenin məzmununa görə Avropa Birliyi və Oksfam-Azərbaycan Təşkilatı heç bir məsuliyyət daşımır.

OXFAM

Fikir və rəylərinizi bildirmək üçün:
Telefonlar: (99412) 4651841 (Qalib Abbaszadə);
(99412) 432 3326 (Azər Mehtiyev)
E-mail ünvanı: nbgoffice1@gmail.com; amehtiyev@gmail.com
web: www.nbg.az; www.budget.az

**Bülleten “Azsea” mətbəəsində çap olunub. Tirajı: 90 nüsxə**